**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 472**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il**

### “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 sentyabr tarixli 346 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 sentyabr tarixli 346 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1573; 2017, № 2, maddə 309, № 12 (II kitab), maddə 2559; 2018, № 3, maddə 602, № 6, maddə 1375) 1-ci hissəsinin “Şuranın üzvləri” bölməsində “Cəbrayıl Fərid Zəbiyulla oğlu - Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi Risklərinin Təhlili və Nəzarəti Departamentinin baş direktorunun müavini” sözləri “Rəhimli Elşən Moqif oğlu - Azərbaycan Respublikası Vergilər Nazirliyinin İqtisadi təhlil və ekspertiza departamentinin baş direktorunun müavini” sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**